# Bəşəriyyət tarixinin dahisi

*Neçə il bundan qabaq Azərbaycanda, qədim Qarabağ torpağında dünyaya bir insan gəldi. Lakin heç kim bu insanın sonralar bir dahi olacağını, dünyada tanınacağını, nəinki Azərbaycanın, dünya bəşəriyyət tarixinin müəyyən dövrünün mədəniyyət səhifəsində öz misilsiz sənət incilərini yaradacağını və bu incilərin illər yadigarına çevrilərək zehinlər xəzinəsində özünə əbədi yer tutacağını bilməzdi.*

Bu insan - insanlıq tarixində ölməzlik, əbədilik qazanan Üzeyir Hacıbəyov idi. Təbiət ondan heç nə əsirgəmədi – böyük ürəyi də ona verdi, insanlığı da, mehribanlığı da, həssaslığı da, səxavətliliyi də. Nadir istedadı da, qabiliyyəti də, yazıb-yaratmaq eşqi ilə yanan ürəyi də ona ərmağan etdi.

Hərdənbir fikirləşirsən. Bütün bunlar, ulu tanrının Üzeyir bəyə verdiyi Allah vergisi idi, yoxsa, gecəsini-gündüzünə qatıb, qarşısına məqsəd qoyaraq bu məqsədə çatmaq yollarını axtarıb tapan insan səyinin nəticəsi idi bunlar?!



Onun bütün həyatı boyu yazdıqlarını, etməli olduğunu və etdiyini, yaratdıqlarını sadaladıqda Üzeyir bəyin bunlara necə vaxt çatdırdığını, incəsənətin müxtəlif sahələrində bir-birindən daha yüksək səviyyədə əzmkarlıqla çalışdığını və ərsəyə gətirdiyi sənət «mirvarilərinin» necə saf, təmiz, gözəl, əlçatmaz bir zirvədə olduğunu göz önünə gətirdikdə istər-istəməz təəccüblənir, Üzeyir Hacıbəyovun parlaq şəxsiyyətinə, əzəmətli yaradıcılığına tükənməz məhəbbət bəsləyir, sadəcə olaraq, heyran qalırsan.

Bəlkə elə buna görədir ki, dahilik hər bir kəsə nəsib olmayan, yüz illər, min illər boyunca bir kəsin daşıdığı ad olur!

Üzeyir bəy həm tariximizdir, həm də bu günümüz. Bu şəxsin insani və yaradıcılıq əlaqələrinin mahiyyəti Azərbaycan sənətinin, Azərbaycan bədii estetik fikrinin həyatiliyini, min illər ərzində qazandığı gözəllikləri, ictimai-fəlsəfi dərinliyi qoruyub saxlamaq və zamanın tələblərinə uyğun şəkildə inkişaf etdirmək idi. Bütün bunlar Üzeyir Hacıbəyovun yüksək amalından irəli gəlirdi.

O bütün həyatı boyu Azərbaycan musiqisini inkişaf etdirmiş, Azərbaycanda əsrin tələblərinə müvafiq yeni, demokratik musiqi formalarının, o cümlədən, operanın və operettanın əsasını qoymuşdu. Dram əsərləri, felyetonlar, elmi-publisist məqalələr, dərsliklər yazmış, rus dilindən tərcümələr etmişdir. Azərbaycanda musiqi təhsilini tətbiq etmiş, XX əsrin musiqi mədəniyyətinin inkişafında çalışan və çalışacaq digər kadrların tərbiyəsi ilə məşğul olmuşdur. Musiqi kollektivlərinə və məktəblərinə rəhbərlik etmiş, ictimai işlərdə fəal çalışmışdır.

Üzeyir dünyası!

Bu dünyanın uca bir dağının zirvəsində yenilməz «Koroğlu», digər zirvəsində qəlbi öz ah-naləsi ilə dağlanan «Leyli və Məcnun» durur, onun yanında odlanıb alovlandıran, böyük eşqin, kədərin tərənnümü olan «Şeyx Sənan», «Rüstəm və Söhrab», «Şah Abbas və Xurşidbanu», «Əsli və Kərəm», «Harun və Leyla», ucalıq zirvəsindən düşməyən «Məşədi İbad», «Arşın mal alan», gündoğan tərəfində insanı valeh edən mahnılar, gün batan tərəfində isə hələ də işıq saçan, insan qəlbinin dərinliklərində zərif duyğular yaradan «Sənsiz», «Sevgili canan» durur.

Bu dünyanın içində daha nələr-nələr var...

Bəli. Üzeyir bəydən çox yazılıb, çox danışılıb. Lakin, nə qədər yazılsa da, danışılsa da yenə də azdır. Onun haqqında yazılanları oxuduqca nə isə təzə bir şey əldə edir, yaradıcılığının yeni xüsusiyyətləri ilə tanış olursan.

Amma çox maraqlıdır.

Görəsən Üzeyir bəy həyatda necə adam olub?

Deyilənlərə görə, Üzeyir bəy orta boydan azca uca, yaraşıqlı bir şəxs idi. Gözündə iri eynək var idi və bu eynəyin altından adama baxanda zəhmli görünürdü. Lakin bu ilk baxışda belə idi. Bu baxışlar həyatda insanları çox yoxlamış, onların yaxşısını da, pisini də, vəfalısını da çox görmüş müdrik adamlara məxsus sınayıcı, ayırdedici, ayıq baxışlar idi.

Üzeyir bəy çox alicənab, insanpərvər, mehriban, sadə təbiətli, müdrik, eyni zamanda, son dərəcə prinsipial, inamından, idealından dönməyən bir adam idi. O, tərs deyildi. Sadəcə olaraq, sənət, mədəniyyət, ədəbiyyat aləmində çoxdan yetişmiş, kamil, bilikli sənətkar olduğundan, siyasi mübarizələr burulğanında kifayət qədər keşməkeşlər gördüyündən, nəyin doğru və nəyin yanlış olduğunu yaxşı ayırd edə bilirdi. Bütün bu sahələrin vacib məsələlərinə aid onun doğru görüşləri, fikirləri, aydın təsəvvürləri olduğundan, o, ancaq həqiqəti ifadə edən fikirləri irəli sürürdü, yalnız o inamdan dönmürdü ki, onun həqiqət olduğuna heç bir şübhə yox idi. Üzeyir bəyin ədəb-ərkanına söz ola bilməzdi. Mənəvi mədəniyyət və şəxsi ləyaqət duyğusu nəticəsində o, sənətindən, ictimai mövqeyindən asılı olmayaraq başqa insanlara da hörmət və məhəbbətlə yanaşırdı.

Üzeyir bəy həyatı sevən, həyatın mənasını, gözəlliyini dərindən duyan və ondan böyük mənəvi ləzzət alan ən qüdrətli, müdrik adamlardan idi. Onda gülmək, yumor duyğusu çox güclü idi. Və biz bunun ən bariz ifadəsini «Arşın mal alan», «Məşədi İbad» kimi ölməz komediyalarda görürük. O, ömrünün axırına qədər bu nikbinliyini qoruyub saxlamışdı.

Böyük sənətkarımız həyatda, məişətdə dəbdəbə, təntənə sevməzdi, son dərəcə sadə, səmimi adam idi, ziynətə-sərvətə meyl etməzdi. O, sənət aləmində ilk addımını atandan zəhmətə alışmışdı, ehtiyacın «ləzzətini» dadmışdı. Hər bir maddi nemətin qədrini bilirdi.

Onun yaradıcılığına və şəxsiyyətinə kamillik kimi yüksək keyfiyyət xas idi. Üzeyir bəyin xalqa olan sonsuz məhəbbəti bütün düşüncəsinə, varlığına hakim idi.

Üzeyir bəy cəmi 63 il yaşadı. Lakin necə yaşadı.

O, bütün mənalı və gözəl həyatını, özünün dərin ictimai ide-

yaları, böyük fikirləri və görüşlərini nəinki bədii yaradıcılığa, bütün insanlara, bütün insanlığa həsr etdi. Üzeyir bəy öz sənətinin qüdrət və mənasını xaqla xidmət etməsində gördü.

Bəzən fikirləşirsən ki, yaşamaq və yaratmaq eşqi ilə çırpınan və hələ çox gözəl operaların, mahnıların, kantataların süjetini, melodiyalarını yaratmağa qadir olan ürəyin dayanması təbiətin böyük ədalətsizliyi idi. Lakin...

Fikrimiz böyük sənətə və ölməzliyə qayıdır... O böyük sənətə ki, onu Üzeyir qanının hərarəti, ürəyinin çırpıntıları ilə yaratmışdı. O ölməzliyə ki, onu Üzeyir bəy öz böyük sənəti ilə çoxdan fəth etmişdi!...

Məşhur yazıçımız Mirzə İbrahimov Üzeyir bəyə həsr etdiyi «Onu düşünərkən» adlı məqaləsini məhz bu ölməzliyə həsr edərək yazırdı: «Böyük insanlar ölüb getdikləri andan, sanki daha artıq bir əzəmətlə vətəndaşların qəlbində yaşamağa başlayırlar. Sanki onlara qarşı yeni bir maraq oyanır, mübarizə tarixi, fəaliyyət və əməlləri, həyat yolu nəinki yalnız elmi məşğul edir, hətta adi vətəndaşlar belə geriyə dönərək bir daha bu yola nəzər salır, onu daha böyük məhəbbət və diqqətlə öyrənirlər. Sənət və peşəsindən asılı olmayaraq bütün vətəndaşlar onların ölümünə təəssüf edir və kədərlənirlər. Bu isə uzun illərin zəhməti nəticəsində qazanılmış, bütün məhəbbətlərdən yüksəkdə duran və fəthi çox çətin olan bir məhəbbətin – həqiqi xalq məhəbbətinin ifadəsidir.

Əsl ölməzlik, əbədi həyat da budur: xalq məhəbbəti! Xoşbəxt o adamdır ki, öz həyatı və mübarizəsi ilə belə bir məhəbbəti qazansın».

İllər keçdikcə xalqımızın böyük bəstəkarı Üzeyir Hacıbəyovun həyat və yaradıcılıq yoluna bir daha nəzər salır, dediklərini və yazdıqlarını təkrar-təkrar xatırlayırıq. Belə ölməz şəxsiyyətin sənət irsinin əsl qiyməti məhz bu gün üçün nə dərəcədə müasir olmasında, görkəmli olmasındadır. Üzeyir irsinə bu baxımdan qiymət veriləndə böyük sənətkarın musiqi əsərlərinin, sənət haqqındakı fikirlərinin, şəxsiyyətinin Azərbaycan musiqisinin və Azərbaycan bəstəkarlarının inkişafındakı misilsiz təsiri bütün əzəməti ilə açıq-aşkar görünür.

Böyük insanların, sənətkarların yaradıcılığı nə qədər öyrənilsə, təhlil olunsa da azdır. İllər keçsə də onlar yeni-yeni nəsillərin mənəvi tələblərinə müvafiq yeni fikirlər, duyğular oyadacaqdır. Onların haqqında yeni tədqiqlərə, yeni məqalələrə, yazılara ehtiyac tükənməyəcəkdir. Hər kəs, hər yeni nəsil bu əsərlərdə yeni nələrsə tapacaq, bu kəslərin, bu şəxsiyyətlərin nəinki yaradıcılığından, eyni zamanda, xasiyyətlərindən, fərdi xüsusiyyətlərindən, necə yaşayıb-yaratmasından özünə ibrətamiz cəhətlər tapacaqdır.

Üzeyir bəy o cür xoşbəxt sənətkarlardandır ki, zaman keçdikcə böyüklüyü, fəaliyyətinin mütərəqqi və humanist mənası daha parlaq şəkildə gözə dəyməkdədir. Onun zəngin irsi indi də diqqəti cəlb edir və genişliyi, dərin mənası ilə bizi heyran qoyur.

Üzeyir bəyin əsərləri heç bir zaman saralıb solmayacaq, əbədi xoş bir təravətlə insanların qəlbinə, fikrinə təsir edərək, onları böyük və azad insan həyatı uğrunda mübarizəyə çağıracaqdır!...

**Sevinc AQİLQIZI,**
**Üzeyir Hacıbəyovun ev-muzeyinin**
**böyük elmi işçisi**